**“Azərbaycan Respublikasında Dövlət daktiloskopik qeydiyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

"Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin birinci hissəsinin 2-ci bəndində və 18-ci maddəsində nəzərdə tutulan "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;[2]

həmin Qanundan irəli gələn digər məsələləri öz səlahiyyəti hüdudlarında həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. «Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini aşağıdakı dövlət orqanları həyata keçirirlər:

2.1.1. həmin Qanunun 8-ci maddəsinin birinci hissəsinin 1-5-ci bəndlərində və ikinci hissəsində nəzərdə tutulan hallarda — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

2.1.2. həmin Qanunun 8-ci maddəsinin birinci hissəsinin 6-cı, 8-ci və 9-cu bəndlərində nəzərdə tutulan hallarda — Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti;[3]

2.1.3. həmin Qanunun 8-ci maddəsinin birinci hissəsinin 7-ci bəndində nəzərdə tutulan hallarda:

2.1.3.1. cinayət törətməkdə şübhəli bilinən, təqsirləndirilən şəxslərə münasibətdə — təhqiqat orqanları, ibtidai istintaq orqanları və ya həmin orqanların tapşırığı ilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

2.1.3.2. məhkum olunmuş şəxslərə münasibətdə — Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi;

2.1.3.3. inzibati qaydada həbs edilmiş şəxslərə münasibətdə — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

2.1.4. həmin Qanunun 8-ci maddəsinin birinci hissəsinin 8-ci bəndində nəzərdə tutulan hallarda — öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti;[4]

2.2. həmin Qanunun 1-ci maddəsinin 1-ci bəndində, 10-cu maddəsinin ikinci hissəsində (birinci halda) və üçüncü hissəsinin 3-cü bəndində, 11-ci maddəsinin ikinci və üçüncü hissələrində, 12-ci maddəsinin birinci abzasında və 17-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini bu Fərmanın 2.1-ci bəndində göstərilən dövlət orqanları öz səlahiyyətləri daxilində həyata keçirirlər;

2.3. həmin Qanunun 9-cu maddəsinin ikinci hissəsində, 10-cu maddəsinin ikinci hissəsində (ikinci halda), 13-cü maddəsinin ikinci hissəsində, 14-cü maddəsinin birinci hissəsində (hər üç halda) və ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.[5]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 15 iyul 2000-ci il**

**№ 374**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2934-2935.**